*Azərbaycan Respublikası*
*Maliyyə Nazirliyinin*
*Dövlət Sığorta Nəzarəti Xidmətinin*
*rəisi*

**_______________ *N.C.Xəlilov***

***«___» ____________ 2011–ci il***

*“İPƏK YOLU SIĞORTA”*
*Açıq Səhmdar Cəmiyyətinin*
*İdarə Heyətinin Sədri*

**____________ *N.C.İmanov***

***«___» ____________ 2011–ci il***

# HAVA LİMANI SAHİBLƏRİNİN VƏ HAVA HƏRƏKƏTİ İDARƏETMƏ ORQANLARININ MÜLKİ MƏSULİYYƏTİNİN SIĞORTASI QAYDALARI

**BAKI - 2011**

# HAVA LİMANI SAHİBLƏRİNİN VƏ HAVA HƏRƏKƏTİ İDARƏETMƏ ORQANLARININ MÜLKİ MƏSULİYYƏTİNİN SIĞORTASI QAYDALARI

## 1. ÜMÜMİ MÜDDƏALAR

1.1. Hazirki Qaydalar üzrə sığorta növü sığorta obyektinə görə əmlak sığortasına aid olan ümumi mülki məsuliyyətin sığortası sinfinə daxildir.

1.2. "İPƏK YOLU SIĞORTA" Açıq Səhmdar Cəmiyyəti (daha sonra mətndə – Sığortaçı) hava limanı sahiblərinin və hava hərəkəti idarəetmə orqanlarının mülki məsuliyyətinin sığortalanmasının hazırki qaydalarına müvafiq olaraq, aeroportların və onların ayrı-ayrı komplekslərinin sahibləri (istismarçıları) olan hüquqi şəxslərlə, və həmçinin, hava hərəkəti idarəetmə orqanları ilə (daha sonra mətndə – Sığortalı ilə) mülki məsuliyyətin sığortalanması müqavilələri bağlayır.

1.3. Hava limanı hava gəmilərinin qəbul edilməsi və göndərilməsi üçün, hava daşınmalarına xidmət göstərilməsi üçün və bununla əlaqədar olan xidmətlərin (işlərin) təmin edilməsi üçün nəzərdə tutulmuşdur. Aeroport müəyyən əraziyə malikdir ki, burada aerodrom, aerovağzal və digər yerüstü (yeraltı) qurğular, kommunikasiyalar, zəruri olan avadanlıq, nəqliyyat vasitələri, rabitə və idarə vasitələri yerləşirlər.

Hava hərəkətinin idarəetmə orqanları hava hərəkətinin vahid idarəetmə sisteminin bölmələri və ya hava hərəkətinin müəssisəyə məxsus olan idarəetmə orqanları – aeroport ərazisində yerləşən komanda, dispetçer və digər məntəqələridirlər.

1.4. Sığortalının mülki məsuliyyəti dedikdə hava gəmilərinin qəbulu və göndərilməsi, hava daşınmalarına xidmət göstərilməsi, və hava hərəkətinin idarə olunması ilə əlaqədar olan istehsal fəaliyyəti nəticəsində vətəndaş və fiziki şəxslərin həyatına, sağlamlığına və ya əmlakına dəyən ziyanın əvəzinin ödənilməsi üzrə Sığortalının qanunla müəyyən edilmiş öhdəliyi başa düşülür.

1.5. Aeroport sahiblərinin və hava hərəkəti idarəetmə orqanlarının mülki məsuliyyətinin sığortalanması (daha sonra mətndə – aeroportların mülki məsuliyyətinin sığortalanması) sığorta obyektinə vurulmuş ziyanın tam ölcüdə və qismən sığorta əvəzinin ödənilməsi üzrə Sığortaçının öhdəliyini nəzərdə tutur. Bu zaman istehsal fəaliyyəti prosesində vurulan ziyan (zərər) üçün Sığortalının mülki məsuliyyətindən törəyən əmlak mənafeləri sığorta obyekti kimi nəzərdən keçirilir.

1.6. Hazırki Qaydalara müvafiq olaraq sığorta predmeti sığorta müqaviləsi üzrə sığotalanan hava limanı sahiblərinin və hava hərəkəti idarəetmə orqanlarının mülki məsuliyyətidir.

1.7. Sığorta müqaviləsinin bağlanmasının və qüvvədə olmasının vacib şərti Sığortalıda hava hərəkətinə qulluq göstərilməsi üzrə fəaliyyətin icra edilməsi üçün və aeroport ərazisində bununla əlaqədar olan işlərin görülməsi üçün lisenziyanın (icazənin) olmasıdır.

## 2. SIĞORTA RİSKLƏRİ

2.1. Sığortaçı Sığortalının işçilərinin təsadüfi (qərəzsiz) hərəkətləri, qurğularda, avadanlıqda və avtonəqliyyat vasitələrində olan defektlərin, və həmçinin, Sığortalı tərəfindən hava gəmisinin bortunda istehlak məqsədilə istifadə etmək üçün tədarük edilən malın qeyri–müvafiq olan keyfiyyəti nəticəsində vətəndaşların həyat və sağlamlığına vurulan və ya vətəndaş

və fiziki şəxslərin əmlakına dəyən ziyan üçün mülki məsuliyyətin yaranması riskinə təminat verir.

2.2. Sığorta müqaviləsi ilə aşağıdakı istiqamətlər üzrə Sığortalının mülki məsuliyyəti sığortalana bilər (hamısı birlikdə və ya istənilən kombinasiyada):

*1-ci istiqamət* – sərnişinlərin qəbulu, onlara xidmət göstərilməsi və onların yola salınması, yüklərin, baqajıın və poçtun qəbulu, saxlanılması, yüklənməsi, boşaldılması və göndərilməsi. Aeroportun ərazisində və ya məsuliyyət zonasında vurulan ziyan üçün sərnişinlər və yük sahibləri qarşısında olan məsuliyyət sığortalanır;

*2-ci istiqamət* – hava gəmilərinin qəbulu, onlara xidmət göstərilməsi və onların yola salınması. Aeroportun ərazisində və ya məsuliyyət zonasında vurulan ziyan üçün məsuliyyət sığorta edilir;

*3-cü istiqamət* - hava gəmisinin bortunda və ya aeroportun ərazisində istifadə üçün istehlak mallarının çatdırılması. Keyfiyyətsiz məhsulun satılması (çatdırılması) ilə əlaqədar olaraq vurulan ziyan üçün aviadaşayıcılar və vətəndaşlar qarşısındakı məsuliyyət sığortalanır;

*4-cü istiqamət* – uçuş zamanı hava gəmisinə nəzarət edilməsi və hava hərəkətinin idarə edilməsi. Hava gəmisinin idarə edilməsindəki səhvlər nəticəsində hava gəmisinin qəzaya uğraması ilə əlaqədar olaraq vətəndaşların həyatı və sağlamlığına, vətəndaşların və hüquqi şəxslərin əmlakına vurulan ziyan üçün üçüncü şəxslər qarşısındakı məsuliyyət sığortalanır.

*Qeyd: Bu bəndin (1), (2), (3) və (4)-cü istehsal fəaliyyəti istiqamətlərindən hər biri üçün Sığortaçının məsuliyyəti bir istiqamətin (bölmənin) hüdudları ilə məhdudlanır və digər istiqamət üzrə Sığortaçının məsuliyyətinin yaranmasını, əgər bu cür risklər sığorta edilməmişdirsə, istisna edilir.*

2.3. Sığorta hadisəsi – üçüncü şəxsələrin istehsal fəaliyyəti ilə əlaqədar olaraq onlara dəyən ziyanın ödənilməsi haqqında onların Sığortalıya iddia təqdim etməsi faktıdır.

2.4. Əgər dəyən ziyanın səbəbi olan hadisə bu Qaydalarda və qüvvədə olan Qanunvericilikdə nəzərdə tutulmuş hadisələr istisna edilməklə, sığorta müqaviləsinin qüvvədə olma müddəti ərzində baş vermişdirsə, Sığortaçı sığorta hadisəsi üzrə məsuliyyət daşıyır.

2.5. Sığorta ödənişinə aşağıdakılar daxildir:

a) ziyan çəkmiş üçüncü şəxslərə (fiziki və hüquqi şəxslərə) kompensasiya kimi ödənilən məbləğlər;

b) əgər işin məhkəməyə ötürülməsi Sığortaçının xəbəri və razılığı olmaqla baş vermişdirsə, və ya Sığortalı işin məhkəməyə verilməsindən qurtara bilməmişdirsə, Sığortalının hüquqi müdafiəsi ilə əlaqədar olan məbləğlər.

## 3. İSTİSNALAR

3.1. Sığortaçı aşağıdakı hallarda Sığortalının ziyanı ödəmək barədə öhdəlikləri ilə əlaqədar olan iddialar üzrə məsuliyyət daşımır:

a) əgər ziyan Sığortalının hava gəmisinin istismarçısı kimi fəaliyyəti nəticəsində vurulmuşdursa;

b) məsuliyyət, xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı Sığortalının istənilən işçisinin həyat və sağlamlığına ziyan vurulması ilə əlaqədar olaraq yaranmışdırsa;

c) məsuliyyət, qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş məsuliyyət həddinin aşılması üzrə müqavilə öhdəliklərindən yaranmışdırsa;

d) məsuliyyət, Sığortalı tərəfindən alıcıya və ya istismarçıya ehtiyat hissələrinin, alətlərin, sənədlərin, materialların çatdırılması və ya onların sərəncamına verilməsi, reqlament və digər işlərin aparılması, yanacaq-sürtgü materialları ilə təchiz edilməsi üzrə öz üzərinə götürdüyü öhdəliklərin vaxtında yerinə yetirilməməsi ilə əlaqədar olaraq yaranmışdırsa.

3.2. Aşağıdakı sənədlər əsasında istisna edilmiş risklər standart şərtlərlə əhatə edilmirlər:

a) Radiasiyanın və radioaktiv çirklənmənin təsirindən yaranan risklərin xaric edilməsi barədə müddəaya əsasən (AVN. 38A şərtinə müvafiqdir) – Əlavə1;

b) Müharibə, qaçırma və digər aviasiya təhlükələri risklərinin xaric edilməsi barədə müddəaya müvafiq olaraq (AVN. 48B şərtinə müvafiqdir) – Əlavə 2;

c) Küylə, çirklənmə və digər təhlükələrlə əlaqədar olan risklərin xaric edilməsi barədə müddəaya müvafiq olaraq (AVN. 46B şərtinə müvafiqdir) – Əlavə 3;

3.3. Aeroportda aşağıdakılar baş verdikdə risklər standart şərtlərə görə sığorta əhatəsinə aid edilmirlər:

a) aerosalon və aeroşou kimi kütləvi tədbirlər keçirildikdə;

b) hava gəmilərinin qəbulu və yola salınması zonalarında, daşınmalara xidmət göstərilməsi zonalarında tikinti-montaj işləri görüldükdə və ya aeroportun rekonstruksiyası aparıldıqda.

3.4. Bu bənddə göstərilən bəzi istisnalara, Sığortaçı və Sığortalı arasında əldə edilmiş xüsusi razılığa əsasən və Sığorta Şəhadətnaməsində göstərilməsi şərti ilə, tarif dərəcəsinə müvafiq əmsalların tətbiq olunması yolu ilə, müqavilənin şərtlərinə uyğun olaraq təminat verilə bilər.

## 4. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI, QÜVVƏYƏ MİNMƏSİ VƏ XİTAM VERİLMƏSİ

4.1. Sığorta müqaviləsi Sığortalının ərizəsi əsasında bağlanır və bu ərizədə risklərin siyahısı, aeroportun istismar şərtləri – hava gəmilərinin qəbulu/yola salınmasının intensivliyi, sərnişin və yük daşınmalarının həcmləri və riskin xarakterinin müəyyən edilməsi üçün vacib əhəmiyyət kəsb edən digər məlumatlar göstərilir.

4.2. Riskin xarakterini və səviyyəsini qiymətləndirmək üçün Sığortalı belə bir hüquqa malikdir ki, aeroport ərazisində olan qurğu və avadanlığın vəziyyətinin ekspert qiymətləndirilməsini həyata keçirsin, Sığortalının işçiləri tərəfindən öz vəzifəsinin yerinə yetirilməsini xüsusi komissiyanın qüvvəsi ilə yoxlasın.

4.3. Sığorta müqaviləsi tərəflər arasında razılaşdırılmış istənilən müddətdə bağlanır və sığorta şəhadətnaməsinin verilməsi ilə təsdiq edilir ki, bu da qüvvədə olan qaydalara əsasən rəsmiləşdirilir.

4.4. Sığorta muqaviləsi (sığorta təminatı) Sığorta Şəhadətnaməsində göstərilmiş sığortanın qüvvəyə minmə tarixində saat 24:00-da qüvvəyə minir və göstərilmiş sığorta təminatının qüvvədən düşmə tarixində saat 24:00-da qüvvədən düşmüş hesab edilir.

4.5. Müqaviləyə dəyişikliklər və əlavələr müqavilənin qüvvədə olduğu müddətdə yalnız tərəflərin razılığı ilə daxil edilə bilər və onlar ikitərəfli sənədlərlə rəsmiləşdirilir.

4.6. Sığorta müqaviləsinə qüvvədə olan qanunvericiliyin müəyyən etdiyi aşağıdakı hallarda xitam verilir:

a) müddətin başa çatması, və ya Sığortaçı tərəfindən Sığortalı qarşısında olan öhdəliklərin tam həcmdə yerinə yetirilməsi;

b) Sığortalı tərəfindən müqavilədə müəyyən edilmiş müddətlərdə sığorta haqlarının ödənilməməsi;

c) əgər tərəflərin qarşılıqlı razılığı ilə Sığortalının istehsal fəaliyyəti müəyyən edilmiş qaydada dayandırılmışdırsa;

d) qüvvədə olan qanunvericiliyə müvafiq olaraq müqavilə qüvvədən düşmüş hesab edildikdə.

4.7. Sığorta müqaviləsi həm Sığortaçının, həm də Sığortalının 30 gün qabaqcadan yazılı xəbərdarlıq verməsi yolu ilə xitam edilə bilər.

a) Müqaviləyə Sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə Sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını Sığortalıya qaytarır. Əgər bu tələb Sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı sığorta haqlarını bütünlüklə Sığortalıya qaytarır.

b) Müqaviləyə Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə Sığortaçı sığorta haqlarını bütünlüklə Sığortalıya qaytarır; əgər bu tələb Sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı müqavilə üzrə işlərin aparılması xərclərini çıxılmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını Sığortalıya qaytarır.

c) Müqaviləyə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı Sığortalıya qaytarılmır.

ç) Müqaviləyə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının Sığortalıya qaytarılması müvafiq olaraq 4.7.-cü maddənin a və b bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

4.8. Sığorçının hüququ vardır ki, aşağıdakı hallarda Sığortalıya 30 gün qabaqcadan yazılı formada bildiriş verməklə sığorta müqaviləsinə birtərəfli qaydada xitam versin:

a) əgər Sığortalı sığorta haqqını bir neçə ödənişlə ödəyərkən müqavilədə müəyyən edilmiş ödənişlər qrafikini gözləmirsə;

b) əgər riskin səviyyəsi artdıqda Sığortalı əlavə mükafatın ödənişindən imtina etmişdirsə.

Müqaviləyə xitam verilməsi haqqında bildiriş Sığortalı tərəfindən, nəzərdə tutulan tarixdən 30 gün əvvəl alınmalıdır.

4.9. Sığortalı, müqavilənin qüvvədə olduğu müddətdə, Sığortaçıya müqavilə bağlanan zaman xəbər verdiyi məlumatlarda əhəmiyyətli dəyişikliklər baş verdikdə, bu dəyişikliklər sığorta riskinin artmasına əhəmiyyətli dərəcədə təsir edə biləcəyi halda, bu barədə dərhal Sığortaçıya xəbər verməlidir. Bu dəyişikliklərə ilk növbədə hava gəmilərinin intensivliyinin artması, daşınmaların yeni tipli hava gəmiləri tərəfindən aparılması və xidmətedici heyətin sayının dəyişməsi və ya ixtisas səviyyəsinin kəskin şəkildə aşağı düşməsi aiddir.

## 5. SIĞORTA MƏBLƏĞİ VƏ AZADOLMA MƏBLƏĞİ

5.1. Sığorta Müqaviləsində göstərilən sığorta məbləği sığorta ödənişinin hədd məbləğidir (Sığortaçının məsuliyyətinin limitidir) və sığorta müqaviləsi ilə bir sığorta hadisəsinə və/və ya bir sığorta müddətinə tam halda hesablana bilər, və bu zaman:

a) bir və ya bir neçə sığorta hadisəsi ilə əlaqədar olan ödənişlər bir sığorta müddəti üçün Sığortaçının məsuliyyət limitindən artıq ola bilməz;

b) məhkəmə xərcləri və hazırki qaydaların şərtlərinə müvafiq olaraq əvəz ödənilməli olan digər xərclər üçün ödəniş sığorta müqaviləsi ilə müəyyən edilmiş hədlər daxilində icra edilir;

5.2. Azadolma məbləğinin ölçüsü sığorta müqaviləsi ilə təyin edilir:

a) azadolma məbləğinin ziyanın bütün növləri üçün, və ya onun ayrı-ayrı növləri üçün müəyyən edilə bilər;

b) Azadolma məbləğinin artıq olmayan ziyanlar üçün ödəniş verilmir;

c) Azadolma məbləği hər bir sığorta halı üçün təyin edilə bilər və bir neçə sığorta halı yaranırsa azadolma məbləği bunların hər birindən çıxılır.

## 6. SIĞORTA HAQQI

6.1. Mülki məsuliyyətin sığortalanması zamanı sığorta haqqının məbləği tərəflərin razılığı ilə Sığortaçının tarif dərəcələri əsasında, sığorta riskinin xarakteri nəzərə alınmaqla təyin edilir.

6.2. Müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən sonra qüvvəyə minir. Sığorta haqqının ikinci və sonrakı hissələri vaxtında ödənilmədikdə Sığortaçı onun ödənilməsi üçün yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.

Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.

Sığortalı öz tərəfindən sığorta haqlarının ödənildiyini sübut edən sənədləri saxlamalı və onları Sığortaçının tələbi ilə təqdim etməlidir.

Əgər sığorta haqlarını Sığortalının tapşırıgı ilə başqa bir şəxs ödəyirsə, həmin şəxs bununla əlaqədar olaraq Sığorta müqaviləsi üzrə heç bir hüquq əldə etmir.

6.3. Sığorta ödənişləri üçün möhlət verilməsi və ya bu möhlətin artırılması ilə əlaqədar olaraq sığorta şərtlərinin dəyişdirilməsi üçün Sığortaçı əlavə mükafat tələb etmək hüququna malikdir.

## 7. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

7.1. Tərəflərin Sığorta müqaviləsi üzrə hüquq və vəzifələri Sığorta müqaviləsinin (şəhadətnamənin) şərtləri, hazırki qaydalar və Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzim edilir.

7.2. Sığortalının vəzifələri:

a) Sığorta müqaviləsinin bütün şərtlərinin gözlənilməsi;

b) Sığorta müqaviləsi bağlanarkən, sığorta riskini qiymətləndirmək üçün əhəmiyyət kəsb edən və ona məlum olan təfərrüat barədə, və həmçinin, hər bir sığorta obyektinə münasibətdə bağlanmış və ya bağlanan bütün sığorta müqavilələri barədə Sığortaçıya məlumat vermək;

c) müqavilənin quvvədə olduğu müddətdə sığortalanmış əmlaka dəyən ziyanın qarşısını almaq və ya azaltmaq üçün bütun tədbirləri görmək;

ç) sığorta haqqını vaxtında ödəmək.

d) Sığorta müqaviləsi üzrə hüquq və vəzifələr Sığortalı tərfindən tam və ya qismən üçüncü tərəfə verilə bilməz, burada Sığortalının yazılı formada təsdiq edilmiş razılığı olduğu hal istisna təşkil edir.

e) Sığorta müqaviləsində göstərilən bütün vacib dəyişikliklər barədə Sığortaçıya vaxtında xəbər verməli;

q) Sığortaçıya sığorta müqaviləsinin bağlanması ilə və müqavilənin qüvvədə olması müddəti ərzində onun müşayiət edilməsi ilə əlaqədar olan tədbirlərin keçirilməsi üçün zəruri olan şəraiti yaratmalı.

7.3. Sığortalının hüquqları:

a) Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan qaydada sığorta müqaviləsinə xitam vermək;

b) Sığorta müqaviləsini (Sığorta Səhadətnaməsini) itirdiyi halda onun yeni nüsxəsini (dublikatını) almaq;

c). Sığorta hadisəsinin qarşısı alınması və dəyə biləcək zərərin azalması üçün zəruri olan məlumat və məsləhətləri Sığortaçıdan almaq;

7.4. Sığortaçının vəzifələri:

a) Sığortaçı, Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, Sığortalı haqqında və onun əmlak vəziyyəti haqqında məlumatı yaymamağa borcludur.

b) Sığortalıya Sığortaçı tərəfindən müəyyən edilmiş qaydada tərtib olunmuş sığorta müqaviləsinin nüsxəsini vermək və Sığortalını sığorta müqaviləsinin şərtləri ilə tanış etmək;

c) Sığortalıdan hadisə haqqında məlumat daxil olduqda baş vermiş hadisənin səbəblərini, xarakterini araşdırmaq, dəymiş zərərin miqdarını və ya ödəniləcək məbləği müəyyən etmək, və nəticədə hadisəni sığorta hadisəsi kimi tanıdıqda və ödənişin verilməsindən imtina üçün əsaslar olmadıqda müqavilə ilə müəyyən edilmiş müddət ərzində və qaydada sığorta məbləği(ləri) çərçivəsində sığorta ödənişini vermək;

ç) Sığorta ödənişinin verilməsindən imtina üçün əsaslar olduqda bu barədə Sığortalıya, səbəbləri göstərilməklə, yazılı şəkildə məlumat vermək;

d) Sığortalı tələb etdikdə, sığorta müqaviləsinin (Sığorta Şəhadətnaməsinin) və sığortanı təsdiqləyən digər sənədlərin yeni nüsxəsini (dublikatını) təqdim etmək;

e) Sığorta müqaviləsi ilə nəzərdə tutulan digər öhdəliklərini yerinə yetirmək.

7.5. Sığortaçının hüquqları:

a) Sığortalının verdiyi informasiyanın, və həmçinin, Sığortalı tərəfindən sığorta müqaviləsinin tələblərinin yerinə yetirilməsinin yoxlanması, səlahiyyətli orqanlara sorğu göndərilməsi;

b) Sığorta müqaviləsi qüvvəyə mindikdən sonra sığorta edilmiş hava gəmiləri ilə baş verən aviasiya hadisələri və qəfil halların tədqiqatında iştirak etmək, Sığortalı tərəfindən onların istismarı üzrə normativ – texniki sənədlərin tələblərinin gözlənilməsini yoxlamaq.

*7.6. Sığorta hadisəsi baş verdikdə Sığortalının vəzifələri:*

Əgər aeroportun istismarı prosesində üçüncü tərəfə ziyan vurulmuşdursa və bu sığorta hadisəsinin baş verməsinə səbəb ola bilərsə, Sığortalı aşağıdakıları yerinə yetirməlidir:

a) hadisənin baş verdiyi andan dərhal və ya ən geci sonrakı 3 iş günü ərzində bu barədə Sığortaçıya məlumat verməli;

b) qüvvədə olan qaydalara müvafiq olaraq tədqiqatda bilavasitə iştirak etməli;

c) hadisə nəticəsində və ondan sonra baş verə bilən ziyanın qarşısını almaq və ya azaltmaq üçün bütün tədbirləri görməli;

ç) 10 günlük müddət ərzində hadisə ilə əlaqədar olaraq Sığortaçıya tələb və ya iddia təqdim edilməsi barədə yazılı formada bildiriş verməli və işin aparılması üçün zəruri olan sənədləri təqdim etməli;

d) Sığortaçının yazılı razılığı olmadan heç bir yeni öhdəlik qəbul etməməli, öz məsuliyyətini boynuna almamalı, baxılan hadisəyə aid olan heç bir təklif qəbul etməməli və ödənişlər etməməli.

*7.7. Sığorta ödənişinin verilməsi qaydaları və şərtləri*

Sığortaçı, Sığortalı tərəfindən bu qaydaların yerinə yetirilməsi halında sığorta müqaviləsi üzrə məsuliyyət daşıyır, lakin Sığortalı tərəfindən ayrı-ayrı müddəaların qərəzsiz şəkildə pozulması və bunlar aşkar edilən kimi Sığortalı tərəfindən dərhal aradan qaldırılması Sığortaçını sığorta ödənişinin verilməsi üzrə məsuliyyətdən azad etmir.

7.8. Sığorta ödənişi Sığortaçı tərəfindən Sığortalının ərizəsi və sığorta halı faktını və ziyanın ölçülərini təsdiq edən sənədlər əsasında tərtib edilir, bu zaman:

a) iddiaya məhkəmədə baxıldıqda – məhkəmənin qüvvəyə minmiş qərarı Sığortaçıya təqdim edilir;

b) iddia məhkəməyə qədər həll edildikdə – Sığortaçıya ziyan vurulan şəxslərin iddia ərizələri və ziyanın ödənilməsi barədə razılaşma təqdim edilir.

7.9. Vurulmuş ziyan üçün Sığortalının qarşılarında məsuliyyət daşıdığı fiziki və hüquqi şəxslər sığorta ödənişini qəbul edən şəxslər ola bilərlər. Sığortaçı aşağıdakıları etməyə borcludur:

a) Sığortalının adından fiziki və hüquqi şəxslərə dəyən ziyanın əvəzi kimi ödəniş etsin və razılaşdırılmış məbləğləri sığorta müqaviləsinə müvafiq olaraq məsuliyyət limitləri həddində və müəyyən edilmiş azadolma məbləği alınmaqla Sığortalıya ödəsin (Sığortalı tərəfindən hüquq məsləhətləri və müdafiə üçün razılaşdırılmış xərclər ödənildikdə);

b) Sığortaçının sərəncamına bütün zəruri sənədlər daxil olduğu andan 30 (otuz) gün müddətində sığorta ödənişini qəbul edən şəxslərə müvafiq məbləğləri ödəsin.

7.10. *Sığortaçının sığorta ödənişindən azad edilməsi üçün əsaslar.*

Sığortaçı sığorta ödənişindən aşağıdakı hallarda azad edilir:

a) ziyan Sığortalının qərəzli hərəkətləri nəticəsində yaranmışdır və bu hərəkətlər sığorta hadisəsi ilə birbaşa əlaqəlidir;

b) Sığortalının məhkəmə orqanlarının və ya arbitrajın qərarı ilə müəyyən edilmiş kobud etinasızlığı halında;

c) Sığortalı mümkün itkiləri azaltmaq üçün məqsədəuyğun və görə biləcəyi tədbirləri bilərəkdən görməmişdir;

d) bu Qaydaların «İstisnalar» bölməsində göstərilən hallarda.

7.11. Sığortaçı heç bir halda, əgər ziyan Sığortalının məsul şəxsinin günahı səbəbindən vurulmuşdursa, Sığortalının qulluqçuları istisna olmaqla, vətəndaşların sağlamlığına vurulan ziyan üçün sığorta ödənişindən azad edilmir.

7.12. Əgər sığorta ödənişi həyata keçirildikdən sonra Azərbaycan Respublikasının Qanunlarına və ya bu Qaydalara görə Sığortalını sığorta ödənişi almaq hüququndan məhrum edəcək hallar aşkar olunarsa (tam və ya qismən), o, bu halda müqavilə üzrə qanunsuz aldığı məbləği Sığortaçıya qaytarmağa borcludur.

## 8. FORS – MAJOR

8.1. Tərəflərdən heç biri müqavilə bağlandıqdan sonra su basması, yanğın, zəlzələ və digər təbii fəlakətlər, tətillər və hakimiyyət orqanlarının aktları, müharibələr və hərbi əməliyyatlar, və həmçinin, səlahiyyətli arbitraj məhkəməsinin qarşısıalınmaz qüvvə kimi qəbul və elan edəcəyi bütün digər hadisələrin nəticəsində öz öhdəliklərini tam və ya qismən yerinə yetirməmişdirsə, bunun üçün məsuliyyət daşımayacaqdır.

8.2. Əgər bu hadisələrdən hər hansı biri müqavilədə müəyyən edilmiş tarixdə öhdəliklərin yerinə yetirilməsinə bilavasitə təsir etmişdirsə, onda bu müddət müvafiq hadisənin baş verməsi müddətinə geri çəkilir.

8.3. Öhdəliyinin yerinə yetirilməsinin qeyri-mümkünlüyü yaranan tərəf 72 saat ərzində yazılı formada digər tərəfə yuxarıda göstərilmiş hadisələrin yaranması, mülahizə edilən davamiyyət müddəti və başa çatma müddəti haqda bildiriş verməlidir. Bildirişdə ifadə edilmiş faktlar, normativ aktla və ya işin aparılması dövrü qaydasına görə fors-major hadisələrini qeydiyyata almaq səlahiyyətinə malik olan dövlət orqanı və ya digər təşkilat tərəfindən təsdiq edilməlidir. Bildirişin verilməməsi və ya vaxtında verilməməsi, qarşısıalınmaz qüvvənin təsirinə məruz qalmış tərəfi yuxarıda göstərilən hadisələrə, onu öhdəliyin yerinə yetirilməməsi üçün məsuliyyətdən azad edən amil kimi əsaslanmaq hüququndan məhrum edir.

8.4. Əgər öhdəliklərin tam və ya qismən yerinə yetirilməsinin qeyri-mümkünlüyü 3 aydan çox davam edirsə, fors-major hadisəsinin təsirinə məruz qalmayan tərəf hüquqa malik olacaqdır ki, ziyanın və həmçinin, öz kontragentin xərcləri üçün əvəz ödənilməsi üzrə öhdəlik qəbul etmədən sığorta müqaviləsini tam və ya qismən kəssin.

## 9. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI

9.1. Tərəflər arasındakı müqavilə üzrə bütün həll edilməmiş mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada nəzərdən keçirilirlər.

9.2. Sığorta müqaviləsini yerinə yetirən zaman tərəflər Azərbaycan Respublikasının Mülki Məcəlləsi və həmçinin, aeroportların istismarı, uçuşların yerinə yetirilməsi və hava hərəkətinin idarə edilməsi, hava gəmilərinin təmiri və istismarı sahəsində münasibətləri tənzim edən qanunları və aktları əldə rəhbər tuturlar.

ƏLAVƏ [1]1

Radioaktiv çirklənmənin təsirindən yaranan risklərin xaric edilməsi haqda müddəa.

(AVN. 38 A şərtinə müvafiqdir).

1. Sığorta mıqaviləsi aşağıdakılara münasibətdə qüvvəyə malik deyildir:

a) hər hansı mülkiyyətin itkisinə, məhv edilməsinə və ya zədələnməsinə, və ya bunun nəticəsi və ya törəməsi olan hər hansı ziyan və ya məsrəflərə;

b) məsuliyyətin istənilən növünə, əgər bunun birbaşa və ya dolayı səbəbi və ya səbəblərindən biri hər hansı mənbədən hasil olan ionlaşdırıcı şüalanma və ya radioaktiv çirklənmədirsə.

2. 1-ci bəndin şərtləri olmadıqda müqavilə üzrə sığorta ilə əhatə edilməli olan və birbaşa və ya dolayı səbəbi və ya səbəblərindən biri Hava Nəqliyyatının Beynəlxalq Assosiyasiyasının (International Air Transport Association) qaydalarını müvafiq olaraq yük kimi daşınılması zamanı hər hansı radioaktiv materiallardan hasil olan ionlaşdırıcı şüalanma və ya radioaktiv çirklənmə olan itki, məhv edilmə, ziyan, məsrəflər və ya məsuliyyət aşağıdakı şərtlər daxilində sığorta ilə əhatə edilirlər (bu müqavilənin digər şərtlərinə müvafiq olaraq):

a) Sığortaçı yalnız o halda məsuliyyət daşıyır ki, istənilən radioaktiv materialların daşınması bütün cəhətlərdən Hava Nəqliyyatının Beynəlxalq Assosiyasiyasının, barəsində məhdudiyyət mövcud olan cisimlərin hava ilə daşınmasına aid olan mövcud tələblərini ödəmiş olsun;

b) hazırki Müqavilə yalnız Sığortalıya qarşı qaldırılmış, sığorta müqaviləsinin qüvvədə olan müddət ərzində baş verən sığorta hadisəsinin nəticəsi olan iddialara münasibətdə qüvvəyə

malikdir və Sığortalının Sığortaçıya qarşı istənilən iddiası, və ya istənilən iddiaçının Sığortalıya qarşı iddiası hadisənin baş verməsi tarixindən sonrakı üç il müddətində təqdim edilməlidir.

c) hava gəmisinin məhv olması və ya zədələnməsi üzrə iddialar bu şərtlərin 2-ci bəndinə əsasən yalnız o halda qəbul edilir ki, çirklənmənin səviyyəsi maksimum icazə verilən səviyyədən çox olsun.

d) bu şərtlərin 2-ci bəndi əsasında bağlanmış olan sığorta müqaviləsi yeddi gün əvvəl bildiriş verməklə Sığortaçı tərəfindən istənilən zaman dayandırıla bilər.

01.01.1989-cu il. AVN. 38 A.

ƏLAVƏ [1] 2

Müharibə, qaçırma və digər aviasiya təhlükə halı üzrə risklərin xaric edilməsi haqda müddəa (AVN. 48 B şərtinə müvafiqdir).

Sığorta müqaviləsi aşağıdakı səbəblərdən yaranan itkilərə münasibətdə qüvvəyə malik deyildir:

a) müharibə, müdaxilə, xarici düşmənlərin hərbi əməliyyatlırı (müharibənin elan edilib – edilməməsindən asılı olmayaraq), vətəndaş müharibəsi, həyəcanlar, inqilab, qiyam, hərbi vəziyyətin təsiri, hakimiyyəti ələ keçirmək cəhdi, hərbi çevriliş və ya digər qeyri-qanuni yolla hakimiyyəti ələ keçirmiş şəxslər və ya orqanların hərəkətləri;

b) atom və ya nüvə bölünməsi və/və ya sintezi və ya istənilən buna bənzər reaksiya və ya radioaktiv qüvvə və maddələrin istifadə edildiyi istənilən silahın təsiri;

c) tətillər, hərc-mərclik, vətəndaş həyəcanları və əmək intizamının pozulması;

d) bir və ya daha çox şəxsin, bu şəxslərin suveren dövlətlərin agentləri olmalarından və bu hərəkətlər nəticəsində ziyanın təsadüfü və ya qərəzlə vurulmasından asılı olmayaraq, siyasi və ya terrorist məqsədlərin əldə edilməsinə yönəlmiş istənilən hərəkətləri;

e) istənilən ziyan törədən aktlar və sabotaj aktları;

f) istənilən hökümətin (mülki, hərbi və ya de fakto mövcud olan) və ya dövlət və ya yerli hakimiyyət orqanlarının sərəncamı ilə konfiskasiya, milliləşdirmə, ələ keçirmə, tutulub – saxlanma, həbs;

j) uçuş zamanı hava gəmisinin bortunda yerləşən və Sığortalının razılığı olmadan fəaliyyət göstərən istənilən şəxs və ya şəxslər tərəfindən həyata keçirilmiş qaçırma və ya istənilən qanunsuz ələ keçirmə və ya hava gəmisi və ya ekipajına münasibətdə qanunsuz sərəncam verilməsi (bu cür ələ keçirmə və ya sərəncam vermə üçün istənilən cəhd daxil olmaqla).

Bundan əlavə, müqavilə, hava gəmisinin yuxarıda göstərilən istənilən səbəb nəticəsində Sığortalının nəzarəti xaricində olduqda baş verən itkiləri sığorta ödənişi ilə təmin etmir.

Əgər hava gəmisi müvəffəqiyyətlə sığorta şəhadətnaməsində müəyyən edilmiş coğrafi hüdudlarda yerləşən və bu hava gəmisinin istismarı üçün tam yararlı olan uçuş sahəsinə qaytarılmışdırsa, Sığortalının hava gəmisinin üzərindəki nəzarəti bərpa edilmiş hesab edilir (bu cür müvəffəqiyyətlə qayıtmanın şərti hava gəmisinin söndürülmüş mühərriklə və heç bir məcbur etmə olmadan dayanacaqda saxlanmasıdır).

ƏLAVƏ [1] 3

Küylə, çirklənmə və digər təhlükələrlə əlaqədar olan risklərin xaric edilməsi barədə müddəa (AVN. 46B şərtinə müvafiqdir).

1. Sığorta müqaviləsi ilə birbaşa və ya dolayı yolla aşağıdakı səbəblərdən yaranan və ya meydana gələn ziyan üçün əvəz ödənilmir:

a) küyün təsiri (insan qulağının qəbul edə bildiyi və ya bilmədiyi), vibrasiya, səs zərbəsi və yuxarıda göstərilənlərlə əlaqədar olan sair hadisələr;

b) hər hansı çirklənmə və ya zəhərlənmə;

c) elektrik və elektromaqnit maneə və şüalanmaların təsiri;

d) mülkiyyətdən istifadə edilməsinə müdaxilə, ziyanın aviaqəza (partlayış, təyyarənin düşməsi, toqquşma) nəticəsində və ya uçuş zamanı qeydə alınmış qəza vəziyyəti nəticəsində yarandığı hallardan başqa.

2. Sığorta müqaviləsində olan və Sığortaçının iddialar qaldırıldığı halda tədqiqat aparmaq və ya məhkəmədə müdafiə olunmaq üzrə öhdəliklərinə aid olan şərtlər aşağıdakı iddia və tələblər verildikdə qüvvəyə malik deyildirlər və bu halda Sığortaçı müdafiə olunmağa məcbur deyildir:

a) 1-ci paraqrafa müvafiq olaraq xaric edilmiş tələbələr və iddialar, və həmçinin,

b) hazırki sığorta şəhadətnaməsi ilə sığorta əhatəsinə aid edilən iddia və ya iddialar üzrə, əgər bu iddia və ya iddialar 1-ci paraqrafa müvafiq olaraq xaric edilmiş istənilən tələblərlə birləşdirilmişlərsə (bu cür tələbələr aşağıda «birləşmiş tələblər» adlandırılır).

3. Birləşmiş tələblərə münasibətdə Sığortaçı Sığortalıya aşağıda göstərilmiş məbləğlərin elə bir hissəsini ödəyəcəkdir ki, (ziyan sübut edildikdə və müqavilədə göstərilən məsuliyyət limitini aşmadıqda), bu hissə hazırki müqavilə ilə sığorta ilə əhatə edilən iddia və tələblərə aid edilə bilər:

(i) Sığortalı tərəfindən ziyanın əvəzi kimi ödənmək üçün nəzərdə tutulmuş məbləğ və

(ii) Sığortalının məhkəmədə müdafiə xərcləri və digər xərcləri.

4. Yuxarıda göstərilənlərdən heç biri bu müqaviləyə əlavə edilən və ya onun bir hissəsi olan radioktiv çirklənmə barədə istisna şərtinə və ya digər istisna şərtlərinə aid deyildir.

AVN. 46 B.
(12.01.1972).